Azadlıq Radiosu

[View the original article]

DÜNYA XƏBƏRLƏRİ

# Qazaxıstanda təlimdə həlak olan hərbçilərin sayı 12-yə çatıb

Sentyabr 25, 2026




Qazaxıstan ordusunun Xəzər dənizində təlimi

Qazaxıstanda Xəzər dənizində hərbi təlimlər zamanı həlak olan hərbçilərin sayı 12-yə çatıb. Manğıstau vilayətinin regional hakimiyyət orqanlarının yaydığı məlumata görə, daha iki hərbçinin axtarışları davam edir və onlar hələ də itkin düşmüş hesab olunurlar.

Hadisə ötən gün baş verib, güclü dalğa 17 nəfəri dənizə aparıb. Onlardan 12-si ölüb, üçünü isə xilas etmək mümkün olub.

Prezident **Kasım-Jomart Tokayev** sentyabrın 25-də ölkədə ümummilli matəm günü elan edib.

"Azattyq Asia" yazır ki, bu, Xəzər dənizində təlim zamanı ilk ölüm halı deyil. 2015-ci ildə Aktau yaxınlığında keçirilən "Mərkəz – 2015" təlimlərində də dörd hərbçi həlak olmuşdu. Həmin vaxt göyərtəsində 52 hərbçi olan altı BTR-80 zirehli transportyoru dənizə çıxmış, güclü külək nəticəsində batmışdı. Faciənin səbəbləri kimi təhlükəsizlik qaydalarına riayət olunmaması, şəxsi heyətin hazırlığının yetərsizliyi və nəzarətin zəifliyi göstərilmişdi. Altı nəfər təqsirli bilinərək məsuliyyətə cəlb edilmişdi.

+++

Qazaxıstan Müdafiə Nazirliyi təlim zamanı 9 hərbçinin həlak olduğunu, qalanlarının isə axtarıldığını bildirib.

Məlumata görə, sentyabrın 24-də Manğıstau vilayətində Qazaxıstan Silahlı Qüvvələrinin Hərbi Dəniz Qüvvələri təlim keçirərkən hava şəraiti qəfil pisləşib və külək güclənib. **Xəzər dənizinin sahilində təlim-döyüş tapşırığını yerinə yetirən hərbçilər güclü dalğanın təsirindən dənizdə batıb.**

19 hərbçidən doqquzunun öldüyü təsdiqlənib, üç hərbçi xilas edilib. Onlardan biri xəstəxanaya yerləşdirilib. Qalan hərbçilərin axtarışı davam edir.

Faktla bağlı Qazaxıstan Baş Prokurorluğunda cinayət işi başlanıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur